*Biz Azərbaycanın bu günü, gələcəyi üçün çox böyük bir sənəd - siyasi, hüquqi sənəd yaratmışıq. Bizim Konstitusiya layihəsinin ən mühüm əhəmiyyəti ondan ibarətdir ki, bu, ilk, tamamilə sərbəst, müstəqil Azərbaycan Respublikasının Konstitusiyasıdır.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 11 noyabr 2017-ci il | № 85 (2202) | Qiyməti 25 qəpik


*12 Noyabr Azərbaycan Respublikasının Konstitusiyası Günüdür*

# Konstitusiya - dövlətin Əsas Qanunu

## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

*...Xalqımızın ümummilli lideri, müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə hazırlanmış Konstitusiya müasir dünyanın sivil dəyərləri və qanun yaradıcılığı təcrübəsinə, xalqımızın çoxəsrlik dövlətçilik ənənələrinə, milli və ümumbəşəri prinsiplərə söykənərək demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu üçün möhkəm təməl yaratmışdır.*

*Hər bir ölkənin tarixində ictimai-siyasi əhəmiyyət kəsb edən hadisələrdən biri də Konstitusiyanın, yəni, dövlətçiliyin və cəmiyyətin fəaliyyətinə hüquqi təminat yaradan əsas qanunlar toplusunun qəbul edilməsidir.*



Azərbaycan 20-ci əsrin əvvəllərində öz müstəqilliyinə qovuşdu. Çox qısa dövrdə əsas dövlət atributlarına mənsub olan xalqımız mürəkkəb tarixi şəraitin doğurduğu çətinliklər səbəbindən öz Konstitusiyasını yaratmağa imkan tapmamışdı. 1917-ci ilin sosialist inqilabı isə bir çox millətlər kimi bizim də azadlığımızı əlimizdən aldı. Keçmiş sovetlər dövründə Azərbaycan müttəfiq bir respublika olaraq dörd dəfə öz Konstitusiyasını qəbul etsə də, çox təəssüf ki, bu hüquqi sənədlərdə xalqımıza xas olan milli dəyərlər öz əksini tapa bilməmişdi, çünki xalqın iradəsi nəzərə alınmadan hazırlanan qanunlar əsasən Sovet ideologiyası ruhunda yazılırdı.

1991-ci ildə Azərbaycan müstəqil dövlətçiliyini yenidən bərpa edə bildi. İlk illərdə dövlətin qeyri-peşəkar siyasətçilər tərəfindən idarə olunması cəmiyyətin bütün sahələrində olduğu kimi, qanunvericilik bazasında da boşluq yaratmışdı. Dünya şöhrətli siyasi xadim Heydər Əliyevin xalqın təkidilə ölkə rəhbərliyinə qayıdışından sonra Azərbaycanda hüquqi dövlət quruculuğu istiqamətində vacib islahatlar həyata keçirildi. 1994-cü ildə Ulu Öndərin sədrliyi ilə Konstitusiya komissiyası yaradıldı, qanunlarımız milli ruhda hazırlandı və 1995-ci il noyabrın 12-də ümumxalq referendumu yolu ilə Azərbaycanın Əsas Qanunu qəbul edildi. Dövlətin fəaliyyətini tənzimləyən belə bir mükəmməl Konstitusiyanın hazırlanması bir həqiqəti də sübut etdi ki, ölkəyə yalnız yüksək idarəçilik təcrübəsi olan siyasi xadimlər rəhbərlik etməyə qadirdir. Ümummilli lider Heydər Əliyev çıxışlarının birində bu tarixi sənədin mahiyyətini təhlil edərək deyirdi: "Biz Azərbaycanın bu günü, gələcəyi üçün çox böyük bir sənəd - siyasi, hüquqi sənəd yaratmışıq. Bizim Konstitusiya layihəsinin ən mühüm əhəmiyyəti ondan ibarətdir ki, bu, ilk, tamamilə sərbəst, müstəqil Azərbaycan Respublikasının Konstitusiyasıdır".

5 bölmə, 12 fəsil və 158 maddə həcmində qəbul edilən Əsas Qanunumuzun əksər hissəsi, daha doğrusu, üçdən biri insan hüquq və azadlıqlarının qorunmasına həsr olunub. Təkcə bu fakta əsaslanıb Azərbaycanın dünyəvi, demokratik və hüquqi dövlət olduğunu söyləmək mümkündür. Əlbəttə, bu mühüm qanunvericilik bazası hazırlanarkən inkişaf etmiş ölkələrin qabaqcıl təcrübəsi, həmçinin, xalqımıza xas olan humanist dəyərlər nəzərə alınıb. "Azərbaycanda hakimiyyətin mənbəyi xalqdır" ifadəsi dövlətin idarə olunmasında ölkə vətəndaşlarının iradəsinin nəzərə alındığını göstərir. Prezident və parlament seçkilərinin şəffaf və tam demokratik şəraitdə keçirilməsi də Konstitusiyamızda öz əksini tapıb, birmənalı şəkildə qeyd olunub ki, bütün seçkilərdə xalq öz istəyini azad surətdə ifadə etmək hüququna malikdir. Belə humanist dəyərlər əsasında hazırlanan Əsas Qanunumuz müxtəlif beynəlxalq səviyyəli ekspertlər tərəfindən yüksək qiymətləndirilib.

**(Ardı 2-ci səhifədə)**

# Müdafiə naziri NATO toplantısında çıxış edib

*Noyabrın 9-da Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov NATO-nun Əfqanıstandakı Qətiyyətli Dəstək Missiyasına töhfə verən dövlətlərin Müdafiə nazirləri səviyyəsində Brüssel şəhərində keçirilən görüşündə iştirak edib.*



Toplantıda Əfqanıstandakı təhlükəsizlik vəziyyəti, Qətiyyətli Dəstək Missiyasının gələcəyi, Əfqan Müdafiə və Təhlükəsizlik qüvvələrinin inkişafı barədə müzakirələr aparılıb.

İclasda çıxış edən general-polkovnik Zakir Həsənov ölkəmizin Əfqanıstandakı beynəlxalq sülhməramlı əməliyyatların dəstəklənməsi missiyasına verdiyi töhfəni qeyd edərək Əfqanıstana yardım məqsədilə təlim, təhsil, infrastruktur, nəqliyyat, investisiya və digər sahələrdə müxtəlif proqramların həyata keçirildiyini xüsusi vurğulayıb.



Müdafiə naziri çıxışında Alyansın etibarlı tərəfdaşı kimi, Azərbaycanın 2017-ci ildən sonra da Əfqanıstanın müdafiə və təhlükəsizliyinə yardım edəcəyini görüş iştirakçılarının nəzərinə çatdırıb.

Keçən həftə açılışının həyata keçirildiyi Bakı-Tbilisi-Qars dəmir yolunun böyük geosiyasi məkanda tarixi əhəmiyyətini xüsusi qeyd edən Müdafiə naziri, bu layihənin Avropa və Asiyanın nəqliyyat xəritəsinin önəmli hissəsinə çevrildiyini, o cümlədən Qətiyyətli Dəstək Missiyasının ehtiyaclarının yerinə yetirilməsi üçün böyük imkanlar yaratdığını da diqqətə çatdırıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Konstitusiya - dövlətin Əsas Qanunu




(Əvvəli 1-ci səhifədə)

Vətənimizin ərazi toxunulmazlığı və sərhədlərimizin qorunması da Konstitusiyada tam ifadə olunub. Qeyd olunub ki, Azərbaycanın sərhədləri heç bir müdaxilə yolu ilə dəyişdirilə bilməz və onun qorunması dövlətə məxsus olan silahlı birləşmələr tərəfindən təmin edilir.

"Vətəndaşların əsas vəzifələri" bölməsinin **76-cı maddəsində** göstərilir: **"Vətəni müdafiə hər bir vətəndaşın borcudur. Qanunla müəyyən edilmiş qaydada vətəndaşlar hərbi xidmət keçirlər"**. Göründüyü kimi, Vətənimizin etibarlı müdafiəsi, dövlətin əsas dayaqlarından biri kimi orduya diqqət göstərilməsi Konstitusiyada şərh olunub. Deməli, torpaqlarımızın müdafiəsində dayanmaq və ölkəni xarici hərbi müdaxilələrdən qorumaq hər bir vətəndaşın konstitusion borcudur. Əgər vətəndaş qanunla müəyyən edilən yaş həddində hərbi xidmətə cəlb edilirsə, bu, onun Qanun qarşısında öhdəliyidir və hamı bu vəzifəni mütləq yerinə yetirməlidir. Son dövrlərin statistikası göstərir ki, Azərbaycan gəncləri hərbi xidmətdən boyun qaçırmır. Bu fakt dövlətimiz tərəfindən məqsədyönlü ordu quruculuğu siyasətinin həyata keçirildiyini, hərbi birləşmələrdə qanunçuluğa və nizamnamələrin tələblərinə ciddi əməl edildiyini, habelə gənc nəsildə Vətənə, dövlətə və xalqa sədaqət hisslərinin yüksək olduğunu deməyə əsas verir. Azərbaycan gəncləri ictimai və dini mənsubiyyətindən asılı olmayaraq orduda xidmət etməyi ən mühüm vətəndaşlıq borcu hesab edir və hərbi xidmət müddətində Vətəni qorumağın sirlərinə dərindən yiyələnirlər. Bu yaxınlarda cəbhə xəttində olarkən Cəbrayıl rayonunun Cocuq Mərcanlı kənd tam orta məktəbində yeniyetmələrlə söhbətimizdə onların əksəriyyəti hərbə maraq göstərdiklərini və gələcəkdə müxtəlif hərbi peşələrə yiyələnmək arzusunda olduqlarını bildirdilər. Deməli, hər bir azərbaycanlıda hərbi xidmətə şüurlu münasibət formalaşıb.

Konstitusiyamızda Silahlı Qüvvələr və digər hərbi birləşmələrlə bağlı prinsiplər də öz əksini tapıb. "Dövlətin əsasları" fəslinin 9-cu maddəsində deyilir:

**1. Azərbaycan Respublikası öz təhlükəsizliyini və müdafiəsini təmin etmək məqsədilə Silahlı Qüvvələr və başqa silahlı birləşmələr yaradır.**

**2. Azərbaycan Respublikası başqa dövlətlərin müstəqilliyinə qəsd vasitəsi kimi və beynəlxalq münasibətlərin həll üsulu kimi müharibəni rədd edir.**

**3. Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanıdır.**

Bu maddənin əsas mahiyyəti ondan ibarətdir ki, Azərbaycan öz ordusunu yaratmaqla heç bir qəsbkarlıq niyyəti güdmür, yalnız öz torpaqlarını təcavüzlərdən qorumağı yeganə məqsəd hesab edir. Ali Baş Komandan İlham Əliyev dəfələrlə bəyan edib ki, Azərbaycan üçün ordu quruculuğunu inkişaf etdirmək və hərbi potensialı artırmaq beynəlxalq hüquqla tanınan ərazilərinin işğaldan azad edilməsindən irəli gəlir. Bəzən müxtəlif dövlətlərin rəsmiləri ölkəmizi sürətlə silahlanmada və hərbi gücünü artırmaqda ittiham edirlər. Amma Prezidentimizin qeyd etdiyi kimi, yaxşı olardı ki, nüfuz sahibləri ikili standartlardan əl çəkib dünyada baş verən bütün münaqişələrə ədalət prizmasından münasibət göstərsinlər. Azərbaycan bəşəri dəyərlərə sadiqliyini nümayiş etdirərək üzləşdiyi münaqişənin sülh yolu ilə həllinə yetərincə səy göstərir. Təəssüf ki, işğalçı Ermənistan öz havadarlarına arxalanıb qəsbkarlıq niyyətindən əl çəkmir. Bir fakta diqqət yetirək: münaqişənin ədalətli həlli istiqamətində Azərbaycanın dövlət rəhbərliyi hər dəfə öz imkanlarını əsirgəmir, amma Ermənistan rəsmiləri qeyri-konstruktiv mövqelərindən əl çəkmirlər. İnsan hüquqlarından, demokratiyadan ağızdolusu danışan güclər isə buna nədənsə göz yumurlar. ATƏT və BMT kimi nüfuzlu beynəlxalq təşkilatların qəbul etdiyi qətnamələr bəzi bölgələrdə öz həllini qısa bir vaxtda tapdığı halda, Azərbaycanın üzləşdiyi hərbi münaqişə 25 ildir ki, həll edilmir. Nəyə görə? - güc sahibi olan dövlətlər bu məsələyə laqeyd yanaşırlar.

Azərbaycan Respublikasında hakimiyyət bölgüsü də dünyəvi dəyərlər və qabaqcıl təcrübələr əsasında öz həllini tapıb. Ölkənin icra hakimiyyəti Prezidentə, qanunvericilik hüququ isə parlamentə məxsusdur. Ədalət mühakiməsi tam müstəqil olan və toxunulmazlığı dövlət tərəfindən təmin edilən məhkəmələr tərəfindən həyata keçirilir. Burada da məsələnin əsas mahiyyəti ondadır ki, hakimiyyət xalqa məxsusdur və qərarlar xalqın iradəsi ilə qəbul edilir. Məhz bu cəhətdən bütün qanunlar insanların istək və arzularını ifadə edir. Deməli, dövlətin məqsədi öz vətəndaşlarının firavanlığını təmin etməkdir.

Demokratik dəyərlərə əsaslanan Konstitusiyamızın təkmilləşdirilməsi istiqamətində də son dövrlərdə bəzi addımlar atılıb və bütün bunlar da, əslində, hakimiyyətin idarə edilməsində müasir tələblərdən irəli gələn dəyişikliklərdir. Ulu Öndərimizin siyasi kursunun layiqli davamçısı olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə dövlətçiliyimizin möhkəmləndirilməsi məqsədilə zəruri hüquqi islahatlar həyata keçirilib. 2009-cu il martın 18-də və 2016-cı il sentyabrın 26-da keçirilən ümumxalq referendumlarında xalq haqlı olaraq hüquqi zəmində yenilikləri dəstəkləyib və dövlətin siyasi xəttinə fəal dəstəyini bildirib. Bu dəyişikliklərdə, əsasən icra mexanizminin təkmilləşdirilməsi nəzərdə tutulub və insanlar öz hüquqlarının etibarlı təmin edilməsi məqsədilə referendumda fəal iştirak edərək dövlətin milli maraqlarını ifadə ediblər.

Ötən il keçirilən son referendumun nəticələrinə qiymət verən Prezident İlham Əliyev bildirib ki, bu gün Azərbaycan, doğrudan da, dünyada seçilən ölkələr sırasındadır. "Təhlükəsizlik təmin edilir, Azərbaycan xalqı sülh, əmin-amanlıq şəraitində yaşayır, beynəlxalq nüfuz artır və ordu quruculuğu uğurla gedir". İndi beynəlxalq aləmdə nüfuza malik olan ekspertlər də öz təhlillərində izah edirlər ki, Azərbaycanda həyata keçirilən hüquqi və demokratik islahatlar dövlət və xalq birliyinin möhkəmlənməsinə, müstəqil Azərbaycanın sürətli inkişafına təminat verir.

Müstəqilliyimizin əsas dayaqlarından olan Silahlı Qüvvələrimizin maddi-texniki bazasının möhkəmləndirilməsi, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi də Azərbaycanın qüdrətli dövlət olaraq beynəlxalq aləmdə nüfuz sahibi kimi tanınmasına xidmət edir. Bu gün doğma ordumuzun sıralarında xidmət edən gənclər Konstitusiyamızdan irəli gələn tələbləri yetərincə dərk edərək Vətənimizə layiqincə xidmət etməyin məsuliyyətini dərindən başa düşürlər. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun ordunun şəxsi heyəti qarşısında qoyduğu əsas tələb də məhz Vətənə, dövlətə və xalqa şərəfli xidmət nümunəsi göstərməkdən ibarətdir. Nazir əsgər və zabitlərlə görüşlərində də tövsiyə edir ki, dövlət rəhbərliyinin və xalqın etimadını layiqincə doğrultmaq əsas vəzifədir. Bu gün təlim və məşğələlərdə döyüş səriştəsini artıran Azərbaycan Ordusunun şəxsi heyəti göstərilən etimadı əməli fəaliyyəti ilə doğrultmağa tam qadirdir.

**Polkovnik-leytenant Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

**10 noyabr 2017-ci il.** Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 115 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan və İcevan rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Qaymaqlı, Cəfərli, Bala Cəfərli kəndlərində, Berd rayonunun Mosesqex, Çinari, Ayqedzor kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli, Ağdam, Koxanəbi, Muncuqlu kəndlərində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Yarımca, Ağdam rayonunun Nəmirli, Şıxlar, Cəvahirli, Sarıcalı, Novruzlu, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan, Kürdlər, Horadiz və Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Tərtər, Ağdam, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

*Ön xətdən reportaj*

# Əsgər olmaq istəyirdim, əsgərəm!

Payız fəslidi. Yolumuz səngərədi. Dağların zirvəsinə düşən qara, ağacların yaşıllığını itirməsinə görə qəribə hisslər yaşaya-yaşaya Azərbaycan əsgəri ilə görüşə gedirik. Yağışdan sonra torpaqdan yaranan qoxunu sinəmə çəkirəm, ancaq payız yağışında fərqli bir rütubət, kövrəklik duyuram, yaz yağışından fərqli olaraq payız yağışını ahıl qocaya bənzədirəm. Mənə elə gəlir ki, yerə səpələnən yarpaqlar ağacların budağından deyil, göylərin dərinliyindən yağır. Saralmış yarpaqlar, otlar, kolkos yolun üzərini də qapayıb. Qəlbimdə nisgil qarışıq sevgi də yol gedir mənimlə. Narahatlığım torpaqlarımızın hələ də düşmən işğalında olmasından yaranırsa, sevgim tezliklə Azərbaycan əsgəri ilə görüşəcəyimdən yaranır.



Kapitan Sübhi Mürsəliyev ordumuzun torpaqlarımızı düşmən tapdağından hər an azad etməyə qadir olduğunu bildirərək söhbətə başlayır: "Hər yerdə olduğu kimi, burada da əsgərlərimiz ruh yüksəkliyi ilə xidmət edir, düşmənin təxribatlarının qarşısını layiqincə alırlar. Hər kəs şəhidlərimizin qisasını erməni işğalçılarından alacaqları günü səbirsizliklə gözləyir".

Şəxsi heyəti təlimatlandıran müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Fərman Cavadzadə təbeliyində olan şəxsi heyətə xidmətlərində ayıq-sayıq olmalarını, vəzifə borclarını dəqiq yerinə yetirmələrini və s. çatdırır. Həmsöhbətim onu da bildirir ki, Vətənimizi, xalqımızı qoruyan, Vətən üçün canlarından keçməyə qadir olan vətənpərvər gənclərlə xidmət etməyi özünə şərəf bilir.

Ağdam rayonundan ordu sıralarına çağırılan, bir ildir ön xətdə xidmət edən əsgər Hüseyn Rəcəbli ilə həmsöhbət oluram. Ağdam rayonunda gedən qızğın döyüşlər zamanı əsgərin dayısı baş leytenant Vüqar Gərayevin də şəhid olduğunu öyrənirəm. Əsgər dayısının yolunu davam etdirəcəyini bildirir: "Düşmənlə təmas xəttində xidmət etdiyim üçün çox sevinirəm. Düzdür, asan deyil, lakin qəlbimdəki Vətən sevgisi mənə bu çətinlikləri hiss etdirmir. Elə buna görə də erməni faşistlərini dədə-baba torpaqlarımızdan qovacağımız günü gözləyirəm. Dərsliklərdən əxz etdiklərimdən, valideynlərimdən öyrəndiklərimdən bilirəm ki, ermənilər xalqımızın başına olmazın müsibətlər gətiriblər. Xocalıda dinc sakinlərin başına gətirilənləri, şəhərin viran edilməsi kadrlarını izlədikcə özümü saxlaya bilmirdim. Məktəb illərimin bitməsini tez istəyirdim. Əsgər formasını əynimə geyinərək ön xətdə xidmət etmək mənim də arzum olub. Bu gün arzuma çatmışam. Ancaq ən böyük arzum xidmətimi bitirdikdən sonra ordu sıralarına yenidən qayıtmaqdır. Ali Baş Komandanımızın döyüş əmri ilə başlanacaq haqq savaşında iştirak etmək mənim də əsas məqsədimdir".

Daha sonra əslən Qubadlıdan olan əsgər Xəqani Kərimovla tanış oluram. Artıq 10 aydır ordu sıralarında Vətənə xidmət edən əsgərə "Hərbi xidmət dövründə hansı vərdişlərə yiyələnmisən?" sualı ilə müraciət edirəm. Əsgər bildirir: "Hər bir vətənsevər gənc hərbi xidmət dövrünü keçməlidir. Bu yol çətin olsa da, şərəfli yoldur. Bura mənim üçün sanki başqa bir dünyadır. Xidmətdə yaşanan hər bir gün yaddaşıma həkk olunur, əsgər yoldaşlarımla keçirdiyim günlər, asudə vaxtlarımızda söhbətlərimiz, təlim və həyəcan vaxtları və s. Özümə dostlar qazanmışam. Hər sirrimi onlarla çəkinmədən paylaşa bilirəm. Çətinliklərə dözmək, qarşına qoyduğun məqsədə nəyin bahasına olursa-olsun, nail olmaq, silah yoldaşlarına həmişə köməklik göstərmək və digər üstün keyfiyyətlər əldə etmişəm".

Əsgər Fərid Dadaşzadə Füzuli rayonundandır. 15 aydır ön xətdə xidmət edir. O da tez bir zamanda Azərbaycan bayrağını işğal altında olan torpaqlarımızda dalğalanacağı günü səbirsizliklə gözlədiyini deyir. "Ermənilər bizim atababa torpaqlarımıza çox nahaqdan iddia edirlər. Axı Qarabağ əzəldən bizim olub, o torpaqlarda əcdadlarımızın ruhu dolanır. Tarixi torpaqlarımızı mütləq azad etməliyik".

Böyük maraqla əsgərimizin söhbətlərini dinləyirəm. "Bəs onda Pənahəli xan kim olub? O, Qarabağ xanlığının yaradıcısıdır. Orada Şahbulaq, Əsgəran, Bayat qalaları Pənahəli xan tərəfindən düşməndən qorunmaq üçün tikilib. Qarabağın əzəldən bizim ərazimiz olduğunu bütün faktlar sübut edir. Qədim torpaqlarımız işğalda qala bilməz. Hər qarış uğrunda canımızdan, qanımızdan keçməyə hazırıq".

- Vətən sevgisi ən uca sevgilərdən biridir, - deyə əsgər Hilal Quliyev də söhbətə müdaxilə edir: - Düşmənə olan nifrətimiz sonsuzdur. Mənim və əsgər yoldaşlarımın yüksək döyüş qabiliyyəti və əhval-ruhiyyəsi var. Burada bizim üçün hər cür şərait yaradılıb. Bu imkanlar hesabına nümunəvi xidmət edirik. Bu gün güclü ordulardan birinin əsgəri olmağımla fəxr edirəm."

**Leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu",**
**foto**
**Coşqun CƏFƏROVUNDUR**

# Xarici ölkələrin Azərbaycandakı hərbi attaşeləri Hərbi Dəniz Qüvvələrində olublar



*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi illik plana əsasən, xarici dövlətlərin ölkəmizdə akkreditə olunmuş hərbi attaşeləri noyabrın 7-də Hərbi Dəniz Qüvvələrinin hərbi hissəsində olublar.*



11 ölkəni təmsil edən hərbi attaşelərə əvvəlcə hərbi hissə və onun yaranma tarixi barədə ümumi brifinq təqdim edilib. Hərbi hissədə qonaqlar şəxsi heyət üçün yaradılan şəraitlə tanış olub və məşğələ otaqlarına baş çəkiblər. Silahlanmada olan döyüş vasitələri ilə tanış olan qonaqlar şəxsi heyətin məşqlərini izləyiblər.

Hərbi attaşelər tədbirin təşkilinə görə Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

AZƏRBAYCAN ORDUSU

# “Bayrağım - varlığım, bəxtiyarlığım!”

*Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü münasibətilə Müdafiə Nazirliyinin tabeliyində olan birlik, birləşmə, Əlahiddə Ümumqoşun Ordu, Hərbi Hava Qüvvələri və Hərbi Dəniz Qüvvələri, o cümlədən xüsusi təyinatlı təhsil müəssisələrində silsilə tədbirlər keçirilib. Tədbirlərdə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərin xatirəsi yad edilib, Dövlət himni səsləndirilib.*



Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində keçirilən tədbirdə Silahlı Qüvvələrin Baş Qərargah rəisinin müavini - Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin rəisi, general-leytenant Nizam Osmanov mərasim iştirakçılarını salamladıqdan sonra Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin döyüş bayraqları ilə bağlı müvafiq təqdimatı şəxsi heyətə çatdırılıb.

Əlamətdar gün münasibəti ilə şəxsi heyəti təbrik edən general bildirib: "Bu gün xüsusi təyinatlı təhsil müəssisələri üçün əlamətdar bir gündür. Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü ərəfəsində Silahlı Qüvvələrin Hərbi Akademiyasına, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinə döyüş bayraqları təqdim olunur. Döyüş Bayrağı əsgərin şərəf, şücaət və şöhrət rəmzidir, şəxsi heyətin qürur və güvənc mənbəyidir. Döyüş Bayrağı elə bir rəmzdir ki, döyüş meydanında qazanılan qələbələr məhz onun adı ilə bağlıdır. Bayrağı isə yüksəldən Vətənin əsl vətənpərvər oğullarıdır. Əlamətdar hadisə münasibətilə hər birinizi bir daha təbrik edir, xidmətinizdə uğurlar arzulayıram".

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin rəisi general-mayor Füzuli Salahov tədbirdə çıxış edərək qeyd edib ki, Ali Baş Komandan və Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən göstərilən etimad bizi daha da məsuliyyətli olmağa sövq etməklə, cəsarətimizi, döyüş ruhumuzu, qələbə əzmimizi daha da artırır. Ali Baş Komandan İlham Əliyevi və Müdafiə Nazirliyinin rəhbərliyini əmin etmək istəyirik ki, düşmən tapdağında olan torpaqlarımızın qaytarılması və ərazi bütövlüyümüzün təmin edilməsi uğrunda mübarizə aparmağa hər an hazırıq.

Sonda təntənəli keçidlə döyüş bayraqları sıra meydanından aparılıb.

* * *

Silahlı Qüvvələrin Hərb Oyunları Mərkəzində 9 Noyabr Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü münasibətilə tədbir keçirilib.

Mərkəzin rəisi polkovnik-leytenant Vaqif Bəşirov müstəqil dövlətçiliyimizin tarixindən danışaraq bildirib ki, müqəddəs Dövlət bayrağımız 1918-ci il noyabrın 9-da ilk dəfə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən təsis edilib. “Azərbaycanda Sovet hakimiyyəti süqut etdikdən sonra, 1990-cı ilin noyabrında ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə bayrağımız Naxçıvanda dövlət bayrağı kimi qəbul edilib. 1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktının qəbul edilməsi ilə Xalq Cümhuriyyətinin varisi kimi bütün dövlət rəmzləri, o cümlədən Dövlət bayrağı yenidən təsis olunub.”

Çıxışına davam edən zabit bayrağın millətin tarixində, varlığında və müstəqilliyində mühüm rol oynadığını, Vətən uğrunda canlarından keçən şəhidlərin bayrağın müqəddəsliyinə sədaqətini vurğulayıb.

Tədbirin sonunda Dövlət Bayrağı Gününə həsr edilmiş film nümayiş etdirilib.

* * *

Cəbhə bölgəsində yerləşən "N" hərbi hissəsində xidmət edən hərbi qulluqçularla Nəsimi rayon İcra Hakimiyyəti nümayəndə heyətinin görüşü keçirilib.

Qonaqlar hərbi hissə komandanlığı ilə birlikdə səngərlərdə olub, burada əsgərlərimizin xidməti, məişət şəraiti ilə maraqlanıb, onlara hədiyyələr təqdim ediblər.

Hərbi hissədəki əsgər kazarmaları və xidməti otaqlar, yeməkxana, hərbi texnika və silahlarla tanışlıqdan sonra şəxsi heyət ilə keçirilən görüşdə çıxış edən Nəsimi rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov Dövlət Bayrağı Günü münasibətilə əsgərlərimizi təbrik edib, onlara çətin və şərəfli xidmətlərində müvəffəqiyyətlər arzulayıb. Bildirib ki, Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə hər il noyabrın 9-u Azərbaycanda Dövlət Bayrağı Günü kimi qeyd olunur. İcra başçısı əminliyini ifadə edərək vurğulayıb ki, Azərbaycanın işğal altında olan torpaqları Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin apardığı məqsədyönlü siyasət nəticəsində düşməndən azad olunacaq.

Birlik komandanlığı adından çıxış edən polkovnik-leytenant Babək Səmidli şəxsi heyətin xidməti və döyüş hazırlığı barədə məlumat verib, tədbirin təşkilinə görə minnətdarlığını bildirib.

Bayram tədbirində marş sədaları altında 100 metrlik Azərbaycan Bayrağının keçidi təşkil olunub. Xidmətdə fərqlənən hərbi qulluqçuların bir qrupu xatirə hədiyyələri ilə mükafatlandırılıb.

Sonda konsert proqramı təşkil olunub, Nəsimi rayon məktəblilərinin Azərbaycan əsgərinə böyük məhəbbətlə yazdıqları məktublar əsgərlərə çatdırılıb.

* * *

Üçrəngli bayrağımız suverenliyin və müstəqilliyin rəmzidir. Tarixə nəzər salarkən görürük ki, bayraq hər bir xalq üçün müqəddəs olub. İnsanlar öz dövlətlərinin bayraqlarına həmişə ehtiramla yanaşıblar. Bu mənada ölkəmizdə Dövlət Bayrağı Gününün qeyd olunması həm dövlətimiz, həm də xalqımız üçün olduqca əlamətdar bir hadisədir.

Azərbaycan Hərb Tarixi Muzeyində də "Bayrağımız qürur mənbəyimizdir" adlı təntənəli tədbir keçirildi.

Tədbirdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin, Müdafiə Nazirliyinin, Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin, "İnnovativ Təşəbbüslər" İctimai Birliyinin, orta məktəblərin, hərbi hissələrin və ictimaiyyətin nümayəndələri, həmçinin xüsusi təyinatlı təhsil müəssisələrinin kursantları iştirak etdilər.



Hərb Tarixi Muzeyinin rəisi ehtiyatda olan polkovnik Əzizağa Qənizadə "Müstəqilliyimizin və milli mənsubiyyətimizin müqəddəs rəmzi olan bayrağımız" adlı məruzəsində hər bir xalqın özünəməxsusluğunu şərtləndirən amillərin onun dövlətçilik ənənələri ilə yanaşı, həm də zəngin milli mənəvi irsi əsasında müəyyənləşdiyini bildirərək qeyd etdi ki, 1918-ci il noyabrın 9-da Nazirlər Şurası tərəfindən üçrəngli bayrağımız ilk dəfə Bakıda Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının yerləşdiyi binada qaldırılmışdı...



"71 il Azərbaycan xalqı doğma və əziz bayrağından təcrid olundu. Lakin bu illər ərzində xalqın öz istiqlaliyyətinə sevgi və məhəbbəti tükənmədi. Əksinə, millətimiz bu bayrağın nə vaxtsa yenə də doğma Azərbaycanımızın üzərində məğrurluqla dalğalanacağı anı səbirsizliklə gözlədi. Həm də gözləməklə kifayətlənmədi, onun uğrunda Sovet hakimiyyətinin kəskin qadağalarına baxmayaraq təmkinlə mübarizə apardı. Həmin bayraq yenidən 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, ulu öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən sessiyada Muxtar Respublikanın dövlət bayrağı kimi qəbul edildi...".

Dövlət Bayrağı Günü haqqında geniş məlumat verən muzey rəisi çıxışını Ali Baş Komandan İlham Əliyevin "Bayrağımız eşidilən səsimiz, duyulan nəfəsimizdir. Bayrağımız bizim qürur mənbəyimizdir. Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Dövlət Bayrağı milli suverenliyin simvolu kimi ölkəmizin bütün vətəndaşları üçün müqəddəs dövlətçilik rəmzlərindən birinə çevrilib. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan bu bayraq bizim azadlıq məfkurəsinə, milli-mənəvi dəyərlərə və ümumbəşəri ideallara sadiqliyimizi nümayiş etdirir", - sözləri ilə bitirdi.

Mənəvi Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin zabiti polkovnik-leytenant Elmar Zeynalabdinov çıxışında bildirdi ki, bayrağımız milli ləyaqətimizin rəmzidir. "Üçrəngli bayrağımız qəhrəmanlarımızdan bizə yadigar qalan ən qiymətli sərvətdir. Bayrağımızın doğma Qarabağda, Xocalıda, Şuşada, Laçında, Xankəndidə, Kəlbəcərdə və işğalda olan digər torpaqlarımızda dalğalanacağı anı səbirsizliklə gözləyirik."

Tədbirdə "İnnovativ Təşəbbüslər" İctimai Birliyinin təşəbbüsü ilə Azərbaycan Respublikasının Dövlət Bayrağını təbliğ məqsədiylə 132-134 nömrəli Təhsil Kompleksinin birinci sinif şagirdlərinə bayraq təqdim olundu.

İctimai Birliyin sədri Əşrəf Əhmədov bildirdi ki, bayraq bizim müstəqilliyimizi dərk etməyimiz, onun qədr-qiymətini bilməyimiz baxımından müqəddəs bir varlıqdır.

Yaranan imkandan istifadə edib birincilərə yaxınlaşanda "Biz bayrağımızı daim uca tutacağıq" kəlmələrini eşitdim...

Muzeyin baş elmi işçiləri, tarix üzrə fəlsəfə doktorları Vahid İsmayılov "Milli dirçəliş günü - azadlığa aparan yol" və Zəfər Kərimov "Müstəqil Azərbaycanın ilk Konstitusiyası" adlı məruzələri ilə çıxış etdilər.

Sonda bayrağımızın tarixindən bəhs edən "Müstəqilliyimizin üç rəngi" adlı sənədli film nümayiş olundu.

* * *

Dövlət Bayrağı Günü münasibətilə Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin təşkilatçılığı ilə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursantlarının Azərbaycan İstiqlal muzeyinə ekskursiyası təşkil olundu. Muzeydə Azərbaycan Respublikasının Dövlət atributlarına, xanlıqlar dövrünə, XIX əsrin sonu - XX əsrin əvvəllərində Şimali və Cənubi Azərbaycanda baş vermiş hadisələrə, Azərbaycanın repressiya və II Dünya müharibəsi dövrünə, Qarabağ müharibəsinə, 20 Yanvar faciəsinə və s. hadisələrə aid rəsm və heykəltəraşlıq əsərləri, xəritələr, şəkillər, kitablar, pul əskinazları və başqa eksponatlar kursantlara nümayiş etdirilib.

Muzeyin yaranma tarixindən danışan bələdçi, ən qədim zamanlardan müasir dövrümüzə qədər Azərbaycan xalqının mədəni-tarixi həyatında baş verən hadisələrdən və müstəqilliyimiz uğrunda mübarizənin müxtəlif dövrlərindən danışdı.

**(Ardı 5-ci səhifədə)**

# "Bayrağım - varlığım, bəxtiyarlığım!"

(Əvvəli 4-cü səhifədə)

Qarabağ hadisələrinə həsr olunan guşə Vətən qoruyucularının xüsusi diqqətini çəkib. Burada 20 Yanvar hadisələrini, Xocalı faciəsinin dəhşətlərini əks etdirən fotolar, müxtəlif sənədli materiallar, həmçinin Qarabağ müharibəsində Vətən uğrunda canlarından keçib, şəhid olan milli qəhrəmanlarımız haqqında məlumatlar, onların şəxsi əşyaları, geyim formaları və digər eksponatlar nümayiş etdirildi.

Xoş təəssüratlarla davam edən ekskursiya 1993-cü il iyunun 15-də ulu öndər Heydər Əliyevin Bakıya dəvət olunduğu "Milli Qurtuluş Günü"ndən başlayaraq ölkəmizin keçdiyi inkişaf yolu haqqında geniş məlumat verən hissənin tanışlığı ilə başa çatdı. Burada müstəqil Azərbaycanın dövlət və ordu quruculuğunu, xarici siyasətini, iqtisadi inkişafını və Ümummilli Liderin siyasi kursunun layiqli davamçısı olan Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin fəaliyyətini əks etdirən materiallar kursantların marağına səbəb oldu.





* * *

Həzi Aslanov adına Mərkəzi Zabitlər Evi və Azərbaycan İstiqlal muzeyinin birgə təşkilatçılığı ilə 9 Noyabr Dövlət Bayrağı Gününə həsr edilmiş ədəbi-bədii tədbir keçirildi. Tədbirin keçirilməsində əsas məqsəd Silahlı Qüvvələrimizin şəxsi heyətində vətənpərvərlik ruhunun yüksəldilməsi və milli-mənəvi dəyərlərimizin fövqündə dayanan bayrağımızın, ümumiyyətlə, digər dövlət atributlarımızın tarixinin öyrənilməsi və təbliğ edilməsidir.

İstiqlal muzeyini həmin gün ziyarətə gələnlərin əksəriyyəti Vətən müdafiəçiləri idi. Hərbçilər muzey bələdçisini maraqla dinləyir və ekspozisiyanı bir-bir gəzirdilər. Zabitlər Evinin muzey müdiri istefada olan mayor Aidə Mirzəyeva bizimlə söhbətində qeyd etdi ki, belə tədbirləri muzeylərlə birgə keçirməyin böyük əhəmiyyəti var. "Ona görə ki, həm şəxsi heyət milli-mənəvi dəyərlərimizin qorunduğu məkanı ziyarət edir, həm də qarşılıqlı əlaqələr nəticəsində tədbirlərimiz maraqlı keçir. Biz yaxşı bilirik ki, muzeylərin gənc nəsillərin hərbi vətənpərvərlik tərbiyəsində, tariximizin təbliğində rolu böyükdür. Muzeylərdə xalqımızın qəhrəmanlıq tarixi, qədim dövlətçilik ənənələri təbliğ olunur".

Ədəbi-bədii tədbirdə Bakı Qarnizonunda yerləşən hərbi hissələrin və Hərbi Polisin bir qrup şəxsi heyəti, Hərbi Dəniz Qüvvələrinin matrosları, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin, C.Naxçıvanski adına Hərbi Liseyin, Hərbi Tibb fakültəsinin kursantları, həmçinin Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivi iştirak etdilər.

Muzeyin elmi işçisi Gülay İbrahimova Dövlət bayrağımız haqqında ətraflı bəhs etdi. "1918-ci il mayın 28-də Şərqdə ilk dəfə olaraq Azərbaycanda Cümhuriyyət yaradılanda az bir müddət ərzində gənc dövlətimizin ən böyük uğurlarından biri də dövlət bayrağının təsdiq olunması idi. Əfsuslar olsun ki, 1920-ci ilin aprelində respublikanın bolşevik Rusiyası tərəfindən işğalından sonra üçrəngli bayrağımız Azərbaycan Parlamentinin binası üzərindən endirilmişdi. Bu gün müstəqil Azərbaycanımızın qürur mənbəyi olan üçrəngli bayrağımız ən uca zirvələrdə dalğalanır. Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə 9 noyabr tarixinin Dövlət Bayrağı Günü kimi qeyd olunması qürurumuzu daha da artırır".

Ədəbi-bədii tədbir Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivinin hərbi vətənpərvərlik mahnıları ilə başa çatdı.

* * *

Hər il noyabrın 9-u ölkəmizdə Dövlət Bayrağı Günü kimi qeyd olunur. Bu əlamətdar gün münasibətilə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə də tədbir keçirildi.

Hərbi liseyin şəxsi heyətlə iş üzrə rəis müavini polkovnik-leytenant Kamran Nəsibov çıxış etdi: "Bayrağımız hər birimiz üçün müqəddəs və əzizdir. Bu gün başımızın üstündə dalğalanan bayrağa hamımız böyük ehtiram göstəririk. Üçrəngli, ay-lı-ulduzlu bayrağımızın yaranma tarixi ötən əsrin əvvəllərinə gedib çıxır. Müstəqil Azərbaycanın dövlət bayrağındakı üç rəngin ifadə etdiyi və XX əsrin əvvəllərindəki milli istiqlal ideologiyamızın üç təməl prinsipini təşkil edən "Türkçülük, islamçılıq və müasirlik" düsturunun müəllifi hamımızın yaxşı tanıdığı, görkəmli Azərbaycan mütəfəkkiri Əli bəy Hüseynzadədir.

Bu gün üçrəngli bayrağımız dünyanın ən nüfuzlu dövlətlərinin bayraqları ilə yanaşı əzəmətlə dalğalanır. Hər dəfə bu mənzərəyə baxanda ürəyimiz açılır, qəlbimiz riqqətə gəlir. Zirvələrə ucalan bayrağımızla fəxr edib öyünürük.

İnanıram ki, gərgin keçən təlim-məşqlərdə daim döyüş təcrübəsini artıran Silahlı Qüvvələrimizin şəxsi heyəti, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin komandanlığı altında torpaqlarımızı erməni işğalçılarından azad edəcək. Bu gün Lələtəpədə dalğalanan üçrəngli bayrağımız sabah Şuşada, Laçında, Xankəndidə və işğal altında olan başqa bölgələrimizdə də dalğalanacaq."

Çıxışlardan sonra kursantlar tədbirin təşkilatçısı Naibə Şəmsiyevanın rəhbərliyi ilə hazırladıqları ədəbi-bədii kompozisiyanı nümayiş etdirdilər.

* * *

Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin təşkilatçılığı ilə "N" hərbi hissəsində də Dövlət Bayrağı Günü münasibətilə hərbi vətənpərvərlik tədbiri təşkil olundu.

Polkovnik-leytenant Vüqar Cəfərov "üçrəngli bayrağımızda şəhidlərimizin ruhu yaşayır, bayrağımız qürur mənbəyimiz, and yerimizdir" deyərək çıxışına başladı.



\- Bir amalla xidmət edirik: tezliklə Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi altında torpaqlarımızı işğaldan azad edib, şanlı bayrağımızı Qarabağa, Şuşaya, Laçına, Kəlbəcərə... sancaq. Əsasını Ümummilli Liderin qoyduğu ordumuzun qüdrəti bütün dünyaya bəllidir. Hər bir zabitimiz, gizirimiz, əsgərimiz Azərbaycan Ordusunda xidmət etməkdən qürur duyur. Bizlər Vətən qoruyucularıyıq, bayrağımız daim ucalarda dalğalansın deyə canımızdan keçməyə hazırıq. Bu Vətən, bu bayraq bizə Mübarizlər, Fəridlər, Raquflar, Çingizlər... kimi qəhrəman oğulların əmanətidir. Yaxın zamanda ərazi bütövlüyümüzü bərpa edərək bayrağımızı zəfər bayramında dalğalandıracağıq.

Əsgərləri Mərkəzi Zabitlər Evinin kollektivi adından bayram münasibətilə təbrik edən polkovnik-leytenant Zöhrab İmamquliyev "Şəhid varsa, torpaq da var, Vətən də, şəhidlərə ölüm yoxdur Vətəndə" şüarını səsləndirərək qeyd etdi ki, dünyanın ən müqəddəs əsgəri, Azərbaycan əsgəridir, ən uca bayrağı, Azərbaycan Bayrağıdır! Ümummilli lider Heydər Əliyevin bayraq haqqında dediyi sözləri Vətən qoruyucularının nəzərinə çatdırdı. "Azərbaycanın bayrağı sadəcə bayraq deyil. O, bizim dövlətçiliyimizin, müstəqilliyimizin rəmzidir. Bu, bizim müstəqil dövlətimizin rəmzidir. Ona görə də gərək hər bir Azərbaycan vətəndaşı, xüsusən gənc nəsil bunu dərk etsin, qiymətləndirsin. Onda bayrağa olan məhəbbət eyni zamanda Vətənə, xalqa, dövlətə olan məhəbbətə bərabər olsun".

Zabit sözünə davam edərək bildirdi ki, Azərbaycan bayrağı illərin sınağından çıxaraq, müstəqillik uğrunda gedən savaşlarda şəhid olan minlərlə həmvətənimizin qanına boyanıb. "Hər birimiz üçün bayrağımız müqəddəsdir. Belə mötəbər günü Vətən qoruyucuları ilə birgə qeyd etmək sevindiricidir. Və bu gün hər bir azərbaycanlı kimi mənim də ürəyim bu bayramı Qarabağ torpaqlarında keçirmək arzusu ilə döyünür. Mərd, cəsur, vətənpərvər Azərbaycan əsgərləri bizdə bu arzuya tez zamanda çatacağımıza inam yaradır".

Sonra hərbi vətənpərvərlik mahnıları oxundu, milli rəqslər nümayiş etdirildi. Xoş ovqatla keçən tədbir "Zəfər marşı"nın ifası ilə başa çatdı.



**"Azərbaycan Ordusu"**

# Bayrağımız - qürur mənbəyimiz

İmişli rayonundakı Heydər Əliyev Mərkəzində Dövlət Bayrağı Günü ilə bağlı təntənəli mərasim keçirilib.

AZƏRTAC xəbər verir ki, bayram tədbirində rayon icra hakimiyyətinin başçısı Vilyam Hacıyev çıxış edib.

Qeyd olunub ki, üçrəngli bayrağımız dövlət rəmzi kimi Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin 1918-ci il noyabrın 9-da keçirilən iclasında qəbul edilib. Lakin 1920-ci ildə Xalq Cümhuriyyətinin süqutu nəticəsində üçrəngli bayrağımız da dəyişdirilib. Yetmiş ildən sonra ilk dəfə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1990-cı ilin noyabrında Naxçıvan MR Ali Soveti müstəqilliyimizin əsas atributlarından olan üçrəngli bayrağımızı muxtar respublikanın dövlət bayrağı elan edib və bununla da ölkədə gedən proseslərə güclü təkan verilib. 1991-ci il fevralın 5-də isə Azərbaycan Ali Sovetinin qərarı ilə üçrəngli və ay-ulduzlu bayraq yenidən dövlət bayrağı elan edilib.

Tədbirdə vurğulanıb ki, ötən əsrin 90-cı illərində müstəqilliyinə yenicə qovuşan Azərbaycan onu itirmək təhlükəsindən dahi rəhbər Heydər Əliyevin dühası ilə xilas olub və müasir inkişaf yoluna çıxıb. Qısa müddətdə dünyada Azərbaycana etimad yaranıb, beynəlxalq layihələr imzalanıb, dövlətçiliyimizə və müstəqilliyimizə yönələn cəhdlərin qarşısı qətiyyətlə alınıb.

* * *

Şirvanda Dövlət Bayrağı Günü münasibətilə keçirilən bayram tədbiri ulu öndər Heydər Əliyevin abidəsini ziyarətlə başlayıb.

Sonra şəhərdəki Şəhidlər xiyabanının qarşısından yüzlərlə sakin Dövlət Bayrağı meydanına yürüş edib.



Bayraq meydanında keçirilən tədbirdə şəhər icra hakimiyyətinin başçısı Mərdan Camalov üçrəngli bayrağımızın tarixi haqqında məlumat verib. İkinci dəfə istiqlalına qovuşan Azərbaycanın müstəqillik tarixində Ümummilli Liderin əvəzsiz xidmətlərini diqqətə çatdıran natiq bildirib ki, məhz Ulu Öndərin qətiyyəti ilə ilk dəfə üçrəngli bayrağımız Naxçıvanda dalğalandırılıb.

Tədbirdə Prezident İlham Əliyevin liderliyi ilə qlobal iqtisadi və regional layihələrin müəllifi olan ölkəmizin sürətli inkişafından da bəhs edilib. Belə bir əminlik ifadə olunub ki, ölkəmizin artan iqtisadi və hərbi qüdrəti sayəsində ərazi bütövlüyümüz tezliklə bərpa ediləcək, üçrəngli bayrağımız doğma Qarabağda, Şuşada, Xankəndidə... dalğalanacaq.

* * *

Hacıqabulda Dövlət Bayrağı Gününə həsr olunan tədbir iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyub, xatirəsinə dərin hörmət və ehtiramlarını bildiriblər.

Sonra yüzlərlə hacıqabullu rayondakı Bayraq meydanına yürüş edib. Mərasimdə çıxış edənlər üçrəngli bayrağımızın tarixi haqqında məlumat verib, bayrağımızın hər bir azərbaycanlının qürur mənbəyi olduğunu vurğulayıblar. Müstəqillik tariximizə nəzər salan natiqlər bildirib ki, Ümummilli Liderin xilaskarlıq missiyası Azərbaycanı müasir inkişaf yoluna çıxarıb. Ulu Öndər regionların inkişafını prioritet hesab edirdi. Bu siyasət bu gün də uğurla aparılır. Prezident İlham Əliyevin strateji hədəf kim qarşıya qoyduğu bu xətt Hacıqabulun simasında da özünü aydın göstərir.

* * *

Salyanda bu əlamətdar gün şəhərdə yeni istifadəyə verilmiş Bayraq Muzeyində qeyd olunub.

Tədbir iştirakçıları əvvəlcə muzeydə sərgilənən tariximizin müxtəlif dövrlərinə aid eksponatlar, qədim Azərbaycan dövlətlərinin bayraqları, xəritələr, poçt markaları və mərasim geyimləri ilə tanış olublar. Sonda Azərbaycanın Dövlət Bayrağına həsr olunmuş videoçarx nümayiş olunub.

# Cenevrədə keçirilən "Sülh həftəsi"ndə Qarabağ məsələsi gündəmə gətirilib

BMT-nin Cenevrə ofisində "Sülh həftəsi" çərçivəsində maraqlı tərəflərin sülh müzakirələri keçirilir.

Beynəlxalq Avrasiya Mətbuat Fondunun (BAMF) mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, müzakirələr dünyanın müxtəlif bölgələrində baş verən münaqişələrin aradan qaldırılmasında sülh təşəbbüslərinin dəstəklənməsinə həsr olunub.

Gündəlikdə qoyulan əsas məsələlər "Sülhə gedən yolun gələcək perspektivləri", "Münaqişələrin aradan qaldırılmasında vətəndaş cəmiyyətinin rolu: çətinliklər, imkanlar və reallıqlar", "Münaqişələrin aradan qaldırılmasında bacarıqların artırılması", "Din - münaqişəyə aparan, yoxsa münaqişənin qarşısını alan vasitə kimi", "Münaqişələrin həllində gənclərin yerli bacarıqlarının artırılması" və s. mövzuları əhatə edib. Tədbir İsveçrə Sülh Platforması, İsveçrə Xarici İşlər Nazirliyi, Dünya Bankı, BMT dayanıqlı İnkişaf Məqsədləri Fondu, UNHCR, UNDP, UNICEF, UNESCO, BMT-nin digər agentlikləri, müxtəlif transmilli korporasiyalar və qurumların, beynəlxalq təşkilatların diqqət mərkəzində olub.

BAMF-ın prezidenti Umud Mirzəyev, vitse prezident Ramil Əzizov, BAMF prezidentinin köməkçisi Anastasiya Lavrina, BAMF-ın BMT-nin Cenevrə ofisindəki daimi nümayəndəsi Maykl Montafi, partnyor təşkilat İSEO -nun baş katibi Qustav Qrob və təşkilatın katibi Abdulrza Metğalçı BMT-nin Cenevrə ofisində "Sülh həftəsi" çərçivəsində keçirilən müzakirələrə qatılıblar.

Azərbaycanın BMT-dəki daimi nümayəndəliyi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Avropa Azərbaycan Cəmiyyətinin təşəbbüsü ilə keçirilən "Münaqişələrin qarşısının alınmasında mədəniyyətlərarası dialoqun Azərbaycan nümunəsi" mövzusunda tədbirdə çıxış edən Maykl Montafi Azərbaycanın multikultural dəyərlərindən, dinc birgə yaşama kimi qədim ənənələrindən danışıb.

O, Tbilisidə keçirilən Ermənistan-Azərbaycan Vətəndaş Sülh Platformasının perspektivlərinə inandığını bildirib. "İllər boyu bir yerdə yaşayan azərbaycanlı və erməni əhalisi arasında sülhün və barışın təşviq edilməsi üçün Sülh Platforması gözəl vasitədir" deyən Maykl Montafi beynəlxalq qurumları platformaya dəstək verməyə çağırıb.

Çıxış edən İSEO baş katibi "xalqların müxtəlif ərazilərdə yaşaması, heç bir halda ərazi bütövlüyünə təhdid olmamalıdır və separatist çağırışlar beynəlxalq hüquqa, bütün beynəlxalq norma və qaydalarına ziddir" deyib. O, münaqişələrin həllində vətəndaş cəmiyyətinin rolu, münaqişələrin həll edilməsi üçün ilk növbədə işğal altındakı ərazilərin azad olunmasının vacibliyindən danışıb.

"Sülh həftəsi" çərçivəsində "Sülhün təşviq edilməsində vətəndaş cəmiyyətinin rolu" mövzusunda müzakirələrə qatılan BAMF-ın prezidenti Qarabağ münaqişəsinin həllində beynəlxalq qurumların sərgilədiyi ikili standartlardan danışıb. "Qlobal münaqişələrin iki iştirakçısı vardır. Bir tərəfdə işğalçı, digər tərəfdə isə işğaldan əziyyət çəkən tərəf. Dünya birliyi münaqişə iştirakçılarını olduğu kimi qəbul etməyi bacarmalıdır. Təəssüf ki, 20 ildən çoxdur ki, Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar aparılsa da, qeyri-obyektiv yanaşma, dünyanın güc mərkəzlərinin korporativ maraqları səbəbindən bu gün də münaqişənin həlli ilə bağlı ciddi nəticələr əldə edilməmişdir", - deyə Umud Mirzəyev bildirib.

# Azərbaycan və Almaniya hərbi mütəxəssislərinin görüşü keçirilib



*Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Almaniya Federativ Respublikası Federal Müdafiə Nazirliyi arasında 2017-ci il üçün ikitərəfli əməkdaşlıq proqramına əsasən, hərbi psixologiya, hərbi qanunvericilik, mətbuat və ictimaiyyətlə əlaqələr məsələləri üzrə mütəxəssislərin görüşü keçirilib.*

Tədbirdə hərbi qulluqçular arasında qarşılıqlı münasibətlər və intizam hüququ, hərbi əməliyyatlar zamanı psixoloji hazırlıq, həmçinin bir sıra digər mövzularda mühazirələr təqdim olunub və geniş fikir mübadiləsi aparılıb.



**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# “Bu ürəklə döyüşə də gedərəm”

## Cocuq Mərcanlı kəndinin 49 yaşlı sakini üzərində açıq ürək əməliyyatı keçirilib



*Cocuq Mərcanlının işğalı camaatı doğma ocağından, isti bucağından perik salmışdı. Az sonra döyüşlə azad edilən bu kənddə daş daş üstə qalmamışdı. Erməni xisləti - ermənilik kəndi viran qoymuşdu, evlər sökülüb-dağıdılmışdı. Camaat doğma ocağına qayıtsa da, kənddə yaşamaq üçün şərait yox idi. Acılar çəkmiş kənd doğmalarının intizarında ağrılı aylar yaşayırdı; kənd həm də ermənilərin atəş mövqeyindəydi. Onda 2015-ci iliydi...*

2016-cı ilin aprelində ermənilərin geniş miqyaslı təxribatlarının qarşısı alındı, Azərbaycan Ordusunun hissələri əkshücum əməliyyatıyla, Lələtəpə də daxil omaqla, 2 min hektardan çox ərazini ermənisizləşdirdi. Cocuq Mərcanlının göylərinə can atan qara buludlar dağıldı...

Aprel döyüşləri Azərbaycan Ordusunun qüdrətini təsdiqlədi. Bu qələbə həm də ordu ilə xalqın birliyinin təntənəsiydi, xalqın inamının qələbəsiydi. Döyüşlər gedən vaxtlarda yaxın kəndlərin əhalisi döyüşənlərə gücü çatdığı həddə kömək edirdi. O döyüşlərdə 8 yaşlı Murad anasının verdiyi bağlamanı çılpaq ata süvar olaraq döyüşənlərə çatdırmışdı; buna ehtiyac olmasa da. Analar döyüşləri belə uğurlamışdı. Muradın atasının - üçüncü qrup Çernobl əlili Natiq Fərəməzovun döyüşlər başlayanda infarkt keçirdiyindən kimsənin xəbəri olmamışdı. Əzizləri Natiqin ürək nahiyyəsində yaranan ağrıları məmləkətin ruhunu kükrədən, coşduran-daşdıran hücuma, arzulanan, gözlənilən qələbənin sevincinə yozdular. Az sonra Natiq ikinci infarkt keçirdi. 49 yaşlı bir ömrü ölüm hədələyirdi. Müxtəlif klinikalara müraciət etdilər, müxtəlif münasibətlər, müxtəlif cavablar Natiqin əzizlərinin düşüncələrinin qasırğasına döndü; üç övlad atasının bir əli ömürün, bir əli ölümün əlindəydi...

Son çarə kimi Müdafiə Nazirliyinə müraciət etdilər...

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun göstərişi ilə Natiq Fərəməzov Silahlı Qüvvələrin Baş Klinik Hospitalının Ürək-damar mərkəzinə yerləşdirildi.

Mərkəzin rəisi tibb xidməti polkovnik-leytenantı Anar Əmrah o günü belə xatırlayır:

- Xəstə ümidsiz vəziyyətdə gətirilmişdi. Ciddi ürək problemləri var idi. Ürəyinin atım gücü cəmi 30 faiz qalmışdı. Açıq ürək əməliyyatı aparılmalıydı. Xəstənin ağ ciyərində, qara ciyərində, böyrəklərində yaranmış problemlər, şəkərli diabet əməliyyatı çətinləşdirirdi. Qısa müddətdə operativ müalicələr nəticəsində bu problemləri çətinliklə də olsa stabilləşdirdik. Ürək dayandırılmadan xəstənin üç damarında əməliyyat apardıq.

Anar Əmrahın rəhbərlik etdiyi mərkəzdə 4 il müddətində 35 minə yaxın xəstəyə müxtəlif səviyyəli tibbi yardım göstərilib. Onların sırasında ürək qüsurlu uşaqlar da olub. 3 min əməliyyat, onlardan 250-si uşaq. Ən kiçiyi 2 günlük körpə! Azərbaycan səhiyyəsinin uğuruna heyrətlənməmək mümkünmü? İndi mərkəzdə quraşdırılan xüsusi avadanlıqlarla müxtəlif növ ürək aritmiyaları xəritələmə ilə aşkar edilir, aritmiyaların müalicəsi ablasiya ilə aparılır. Karto xəritələmə cihazı ilə uzun illər atrial fibrilasiya, paroksizmal atrial taxikardiya kimi xəstəliklərdən əziyyət çəkənlərə diaqnoz qoyulur və müalicəsi aparılır.

Müdafiə nazirinin göstərişi ilə Natiq Fərəməzov bu mərkəzdə əməliyyat olundu. Açıq ürək əməliyyatı oktyabrın 30-da uğurla həyata keçirildi.

Natiq Fərəməzov özünü gümrah hiss edirdi. Uğur üstəydi - bir azdan Cocuq Mərcanlıya qayıdacaqdı. Əzizlərinin - həyat yoldaşının, qardaşı Rafiqin, bacısının, bacısı oğlunun, ... sevincini sözlə ifadə etmək mümkünmü? Yox, mümkün deyil. Ali Baş Komandana, Müdafiə nazirinə, Baş Klinik Hospitalın rəhbərliyinə, Anar Əmraha, mərkəzin bütün əməkdaşlarına təşəkkürləri eşitmək nə qədər xoşdu! Qürurlanırsan. Belə bir ordu ilə, belə bir Hospitalın fəaliyyətiylə, belə bir Nazirliklə qürurlanırsan. Xalqımızın belə həkim-cərrahlarıyla qürurlanırsan.

Natiq Fərəməzov hərdən qapıya sarı boylanır. Ona həyat verənlərimi arayır sevinc beşiyinə dönən baxışları? Onlara deyiləsi sözümü var? Deyəcəyi sözləri ifadə edə biləcəkmi? Sağ olun, deyəcək. Bu kəlmələr o qədər səmimi səslənəcək ki!..

Söhbətləşirdik. Xeyli keçmişləri xatırlaya-xatırlaya söhbətləşirdik. Hər kəlməsində torpaq vardı, əsgər vardı, qələbə vardı, ağrıların sıxılcımların unudulduğu anların xoş ovqatı vardı. Bu ovqatı ona uzman Anar Əmrah, Anar Əmrahın rəhbərlik etdiyi şöbənin əməkdaşları yaşadırdı.



2016-cı ilin aprel döyüşlərini xatırlayanda baxışlarını bürüyən sevinc də təsdiqləyirdi ki, on beş-iyirmi gün əvvəlki ağrılardan əsər-əlamət qalmayıb.

Çox istərdik ki, Anar Əmrah əməliyyat haqqında danışsın, danışmadı, əməliyyat qabağı keçirdiyi duyğulardan danışdı:

- Aprel döyüşləri də, Lələtəpə də, Cocuq Mərcanlı da yaddaşlara yazılıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə yenidən qurulan Cocuq Mərcanlını mən də işğaldan azad edəcəyimiz yaşayış məntəqələrimizin timsalı bilirəm. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun göstərişi ilə bu kənddə yaşayan Natiq Fərəməzov mərkəzə gətiriləndə də aprel döyüşlərini xatırladım, uçub-dağılmış Cocuq Mərcanlının bu gününü xatırladım. Mənə elə gəlirdi ki, bu əməliyyat aprel döyüşlərinin davamıdır. Bütün Cocuq mərcanlılar şükranlıqla əhatələnməlidi! - əməliyyata bu istəklə, bu niyyətlə başladıq. Uğurlu alındı. Natiqi yaşada bildik. Bu uğur mənim deyil, bizə bu şəraiti yaradan Ali Baş Komandanın, Müdafiə Nazirliyinin, Baş Klinik Hospitalın rəhbərliyinin uğurudu...



Öyrəndik ki, respublikamızda ilk dəfə olaraq ağciyər tromboemolisiyasının qapalı üsulla müalicəsi aparılan, dünyada nadir (həm də ilk!) hesab edilən ürəyin tac arteriyasındakı trombu xüsusi kataterlə EKOS prosedurası ilə əritməyə nail olan mərkəzdə ölkə başçısının göstərişi ilə hərbçilərlə yanaşı, bütün müraciət edən vətəndaşlar da müayinə və müalicə olunur. Onlardan biri də Müdafiə naziri general-polkovnik Zakir Həsənovun göstərişi ilə Cocuq mərcanlılı Natiq Fərəməzov olub. Tam təmənnasız əməliyyat, ölümün pəncəsindən qoparılan həyat və həyat qədər şirin sevinc!..

Natiq Fərəməzovun sezilməsi çətin olan narahatlığını yurd sevgisinə yozduq və söhbətimizi bayaqdan bəri düşüncələrimizə çökmüş bir sorğuya yönəltdik:

- Döyüş bölgələrində, ön xəttə yaxın kəndlərdə yaşayan uşaqların böyük əksəriyyəti "Hərbçi olacam!" deyir. Yəqin ki, soruşsaq, aprel döyüşlərində çılpaq ata süvar olub anasının verdiyi bağlamanı döyüşənlərə çatdıran Murad da belə deyərdi.

Natiq Fərəməzov bir anlığa duruxdu. Yaddaşında nələrisə dürüstləşdirməyə çalışdı və bir qədər qürurla, bir qədər fərəhlə dilləndi:

- Əvvəllər belə deyərdi. Mən bu azardan qurtulandan sonra "Həm hərbçi olacam, həm də cərrah. Vətən üçün hərbçi, camaat üçün cərrah" - deyir. Yəni, Murad hərbçi-cərrah olmağı qərara alıb. Anar Əmrah bu yaşda uşaqların düşüncələrinin səmtini dəyişib, xalqa, millətə, dövlətə gərəkli səmtə dəyişib...

"Yenidən tapdığım bu ömürə görə Ali Baş Komandana, Müdafiə nazirinə, hospitalın rəhbərliyinə, məni ölümün əlindən alan cərrahıma, şöbənin əməkdaşlarına hansı kəlmələrlə təşəkkür edim, bilmirəm. Onu bilirəm ki, döyüşəcək oğullarımızla bir sırada dayanmağa hazıram. Sağlam bir ürəklə Cocuq Mərcanlıya qayıdıram, oradan döyüşəcək əsgərlərimizlə Cıdır düzünəcən getməyə qadir olan bir ürək verdi mənə Anar Əmrah. Bu ürəklə döyüşə də gedərəm..." - Natiq Fərəməzovun dedikləri bizə bir könül xoşluğu yaşatdı: Böyük Qələbəyə az qalıb, Vətən! Bu könül xoşluğu illər keçsə də unutmadığımız, unutmayacağımız Cıdır düzünün çiçəklərinin qoxusundaydı...

Ürək...

Baş Klinik Hospital...

Anar Əmrahın rəhbərliyiylə müraciət edənlərin ürəyi burada sağaldılır. Torpaqlarımızı ürək sıxıntılarından Azərbaycan əsgəri qurtaracaq, torpaqlarımızın yaralarını Azərbaycan əsgəri sağaldacaq!..

Həkimlər Natiq Fərəməzova gərəkli tövsiyələr verib. Anar Əmrah yolasalma ərəfəsində də müayinə edir. Bu, peşəyə sədaqətdi - loğmanlıqdı, insansevərlikdi...

Natiq Fərəməzov "Muradımın yanına qayıdıram..." - dedi. Təkcə oğlu Muradı demədiyinə, muradının, istəyinin, niyyətinin yanına qayıtdığına sevindiyini sezmək çətin deyildi. O murad, o istək, o niyyət işğalın sonuna aparan yoldu. Biz də - ayağı yer tutanlar da, dizində taqət olanlar da o möhtəşəm yolun yolçusu olacağıq. Həm də yaxın vaxtlarda...

**Baş leytenant**
**Məhəmməd NƏSİRLİ,**
**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# "Şahmat sahəsində əldə edilmiş qələbə onu göstərir ki, xalqımızın çox güclü intellektual potensialı var"



*Azərbaycan növbəti böyük uğura imza atıb. Bu dəfə idmanın şahmat növündə, intellektual idman növündə qazanılmış qələbə xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan komandası Avropa çempionatında birinci yer tutub və çempion olub. Bu, bütün Azərbaycan xalqını sevindirən qələbədir. Şadam ki, bu, artıq birinci qələbə deyil, bu, üçüncü qələbədir. Bu, onu göstərir ki, budəfəki qələbə də təsadüfi qələbə deyil, bu, təbii qələbədir. Bu qələbə Azərbaycan xalqının istedadına, intellektinə əsaslanan qələbədir.*

Bu fikirləri Prezident İlham Əliyev noyabrın 8-də şahmat üzrə Avropa komanda çempionatının qaliblərindən ibarət nümayəndə heyəti ilə görüşdə deyib.

Dövlətimizin başçısı bildirib ki, bu qələbə, doğrudan da, həm müstəqilliyimizin uğurlu inkişafını, həm də ölkəmizin intellektual səviyyəsini göstərir. Azərbaycan Olimpiya Oyunlarında, Avropa və İslam Həmrəyliyi Oyunlarında artıq dünyada sübut edib ki, böyük idman dövlətidir. Biz Bakıda keçirilmiş Avropa Oyunlarında ikinci, İslam Həmrəyliyi Oyunlarında isə birinci yerə layiq görüldük. Yay Olimpiya Oyunlarında medalların sayına görə biz dünya miqyasında 14-cü yerdəyik. Bu, tarixi nailiyyətdir, tarixi qələbədir. Bu qələbə - şahmat sahəsində əldə edilmiş qələbə onu göstərir ki, xalqımızın, eyni zamanda, çox güclü intellektual potensialı var. Bu, əlbəttə ki, ölkəmizi və xalqımızı fərqləndirən amillərdən biridir. Həm döyüş idman növlərində, eyni zamanda, komanda idman növlərində də uğurlarımız var. İntellektual idman növündə - şahmatda bu qələbə, doğrudan da, bizim hamımızı çox sevindirir.

Azərbaycan Prezidenti vurğulayıb ki, Avropa qitəsində şahmat sahəsində birinci olmaq, özü də üçüncü dəfə birinci olmaq, doğrudan da, böyük tarixi qələbədir.



Xatırladaq ki, Yunanıstanın Krit adasında keçirilən şahmat üzrə 40 ölkəni təmsil edən, komandalar arasında Avropa çempionatının qalibi olan Azərbaycan millisini qarşılayıblar.

Şəhriyar Məmmədyarov, Teymur Rəcəbov, Arkadi Naydiç, Rauf Məmmədov və Qədir Hüseynov təmsil ediblər. Komandamızın rəqibləri Rusiya, Ukrayna, Moldova, İspaniya, İtaliya, Avstriya, Macarıstan və Ermənistan komandaları olub.

Komandamız ilk turda İtaliya yığmasına məğlub olmasına baxmayaraq, sonrakı turlarda Avstriya, Moldova, Çexiya, Ermənistan, Macarıstan, Rusiya komandalarına qalib gəlib, Ukrayna və İspaniya millilləri ilə heç-heçə edib.

Azərbaycan millisi bu qələbə ilə qitə birinciliklərində üçüncü dəfə qızıl medala sahib olub. Çempionatda fərdi çıxışları ilə fərqlənən şahmatçılar arasında Rauf Məmmədov, Şəhriyar Məmmədyarov və Teymur Rəcəbov yer alıb. Ən yaxşı nəticəni isə Rauf Məmmədov göstərib. Keçirdiyi 9 görüşdən 8 xal yığan Rauf Məmmədov dördüncü lövhədə qızıl medala sahib çıxıb. Birinci lövhədə 8 matçdan 5 xal toplayan Şəhriyar Məmmədyarov və ikinci lövhədə 5,5 xallıq nəticə göstərən Teymur Rəcəbov gümüş medala layiq görülüblər.

Şahmatçılarımız 2009-cu və 2013-cü illərdə keçirilən qitə birinciliklərində də çempion olublar. Milli komandamız ilk medalını - bürünc mükafatı 2007-ci ildə qazanıb. 2011-ci ildə təşkil olunan Avropa çempionatında isə şahmatçılarımız yalnız Almaniya yığmasından geri qalaraq gümüş medala sahib olublar.

**"Azərbaycan Ordusu"**

# Tərtərdə "Bayraq yürüşü" təşkil olunub

*Noyabrın 8-də Müdafiə Nazirliyi, Təhsil Nazirliyi, "ASAN xidmət" və Tərtər rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Tərtərdə Dövlət Bayrağı Gününə həsr olunmuş "Bayraq yürüşü" keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirdə Müdafiə və Təhsil nazirliklərinin rəhbər şəxsləri, Milli Məclisin deputatları, "ASAN xidmət"in əməkdaşları, hərbçilər, Qarabağ müharibəsi veteranları, tanınmış ziyalılar, idmançılar, müəllim və şagirdlər, QHT və KİV nümayəndələri iştirak ediblər. Yürüş iştirakçıları əvvəlcə Tərtər rayonunun mərkəzi meydanında Ulu Öndərin xatirəsinə ucaldılmış abidənin önünə gül dəstələri qoyublar.

Heydər Əliyev prospektindən Dövlət Bayrağı Meydanına qədər davam edən yürüşdə hərbi orkestrin ifasında Azərbaycanın Dövlət himni səsləndirilib.

Təhsil nazirinin müavini Firudin Qurbanov tədbirdə çıxış edərək, Azərbaycan dövlətinin və istiqlalımızın müqəddəs rəmzlərindən olan bayrağın milli kimliyimizin simvolu olduğunu qeyd edərək bayrağımızın işğal altındakı ərazilərimizdə dalğalanacağı günün uzaqda olmadığını və Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında buna nail olunacağını əminliklə vurğulayıb.

Tərtər rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov Dövlət Bayrağı Gününün qeyd olunmasını dövlətçilik tariximizin əlamətdar hadisəsi kimi qiymətləndirib.

Tədbirdə çıxış edənlər "Bayraq yürüşü"nün keçirilməsini təqdirəlayiq hal kimi dəyərləndirib, üçrəngli bayrağın hər zaman yüksəklərdə dalğalanacağına əmin olduqlarını bildiriblər.

Daha sonra hərbçilər nümunəvi çıxışlar təqdim ediblər. "ASAN Könüllüləri"nin və şagirdlərin ifasında bayrağımıza həsr olunmuş şeir, mahnı və rəqslər ifa olunub. Bir qrup vətənpərvər tərtərliyə "Vətən naminə" medalı təqdim edilib.

## Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, noyabrın 8-də Tərtər rayonu ərazisində, Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, monitorinqi Azərbaycan tərəfindən şəxsi nümayəndənin səhra köməkçiləri Mixail Olaru və Martin Şuster keçiriblər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan ərazisilərimizdə isə monitorinqi şəxsi nümayəndənin səhra köməkçiləri Gennadi Petrika və Oqnyen Yoviç aparıblar.

Kapitan Əlirzayev Rza Kamil oğluna 2009-cu ildə verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

---

Əliyev Nazim Bəylər oğluna 1998-ci ildə verilmiş müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Rəşid HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 573
Nüsxə 4600